# M Ü N D Ə R İ C A T


Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciəti........ 3
Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu........ 6
Ali Məhkəmədə 2013-cü ildə baxılan işlər haqqında ümumi məlumat........ 10
Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda icraat........ 13
Ali Məhkəmənin məhkəmə kollegiyalarında 2013-cü ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat: ........ 14
Mülki kollegiya........ 14
İnzibati-İqtisadi kollegiya........ 17
Cinayət kollegiyası........ 24
Hərbi kollegiya........ 28
Ali Məhkəmənin Plenumu........ 31
Ali Məhkəmənin Aparatı və İşlər idarəsi........ 34
Ali Məhkəmənin 2013-cü ildə beynəlxalq əlaqələri........ 38
Ali Məhkəmənin İnternet səhifəsi........ 45
Ali Məhkəmənin bülleteni........ 47
Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi........ 48
Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası........ 48

**Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə**

# M Ü R A C İ Ə T İ

***Hörmətli xanımlar və cənablar!***

Sizlərlə hər dəfə görüşməyin və fikirlərimizi bölüşməyin bizim üçün çox xoş olduğunu bildirirəm və Sizləri salamlayıram.

Bu günkü görüşümüzdə Ali Məhkəmənin fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edən bir Sərəncamı diqqətinizə çatdırmaq istəyirəm. 13 fevral 2014-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncam imzalamışdır. Bu Sərəncama əsasən ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi, müasir informasiya texnologiyalarının tətbiqi prosesinin sürətləndirilməsi məqsədilə ərizə, şikayət və digər sənədlərin elektron formada qəbulu, cinayət işləri, mülki, inzibati, iqtisadi mübahisələrə dair və inzibati xətalar haqqında işlər üzrə icraatın elektron qaydada aparılması, sənədlərin elektron dövriyyəsi, məhkəmə prosesində iştirak edən şəxslərə məlumatların elektron qaydada – elektron poçt, SMS məlumatlandırma və sair vasitələrlə çatdırılması və digər məsələlər təmin edilməlidir. Bu sahədə işlərə artıq start verilmişdir.

Nəzərinizə çatdırım və Siz bunun əyani şahidi də ola bilərsiniz ki, Ali Məhkəmədə ədalət mühakiməsinin yüksək səviyyədə həyata keçirilməsi üçün ən müasir standartlara uyğun şərait yaradılmışdır. Əvvəlki illərlə müqayisədə

2013-cü il ərzində vətəndaşların hüquqlarının məhkəmə müdafiəsinin səviyyəsi yüksəlmişdir. Respublikamızın bir sıra rayonlarında yeni məhkəmə binaları tikilib istifadəyə verilmişdir.

Bildiyiniz kimi, Azərbaycan Respublikası "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmuşdur və Avropa Məhkəməsinin presedent hüququ bizim hüquq sistemimiz üçün çox əhəmiyyətlidir. Azərbaycan vətəndaşları bundan bəhrələnirlər. Bu baxımdan ədalət mühakiməsini həyata keçirən hakimlərin beynəlxalq hüquq normalarını, insan hüquqları sahəsində beynəlxalq standartları, onların tətbiqi təcrübəsini mənimsəmələri önəmli olduğundan Ali Məhkəmədə hər həftə keçirilən seminarlarda beynəlxalq hüquqi aktlar, xüsusən də "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəaları, Avropa Məhkəməsinin presedent hüququ öyrənilir. Hakimlərin və dəvət olunmuş beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə "dəyirmi masa"lar keçirilr, vaxtaşırı qarşılıqlı təcrübə mübadiləsi məqsədilə Avropa dövlətlərinə səfərlər təşkil edilir.

Bizim əsas prinsipimiz məhkəmə proseslərində aşkarlığı təmin etməklə ədalətli qərarlar qəbul edilməsinə nail olmaqdır. İctimaiyyətdə Ali Məhkəmənin fəaliyyəti haqqında dolğun məlumatların olmasını təmin etmək məqsədi ilə internet səhifələrində daim yeniləşdirilən saytımız yerləşdirilmişdir. Həmin saytda Ali Məhkəmənin Plenumu və müvafiq kollegiyaları tərəfindən qəbul edilmiş qərarlar və digər məlumatlar verilir.

Nəzərinizə çatdırım ki, Ali Məhkəmənin bütün kollegiyalarında - mülki, inzibati-iqtisadi, cinayət və hərbi kollegiyalarında 2013-cü ildə baxılmış işlər 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə 12,5 faiz çox olmuşdur. Qeyd edim ki,

ailə, mülkiyyət, əmək hüququna, torpaq, vergi, bank krediti məsələləri ilə əlaqədar baxılan işlərin sayı nəzərəçarpacaq dərəcədə artmışdır. Xüsusilə, vətəndaşların hüquqlarının müdafiəsi ilə bağlı vəzifəli şəxslərin qanunla uzlaşmayan hərəkətlərinə dair inzibati işlərə baxılması 91,8 faiz təşkil etmişdir.

***Hörmətli jurnalistlər!***

Əməkdaşlığımızın mütəmadi olması ümumi işimizin xeyrinə olar. Sizə həyatda və yaradıcılıqda uğur qazanmağınızı arzulayıram.

**Hörmətlə,**

**Ramiz Rzayev**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri**

## Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu

Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır.

Ali Məhkəmə mülki, iqtisadi və inzibati mübahisələrə dair işlər üzrə, cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir.

Ali Məhkəmə Azərbaycan Respublikasının Bakı şəhərində təşkil edilmişdir və onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

Ali Məhkəmə Plenumdan və dörd məhkəmə kollegiyasından ibarətdir.

"Məhkəmələr və Hakimlər haqqında" Azərbaycan Respublikasının qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununa əsasən Ali Məhkəmənin "mülki işlər üzrə, iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və hərbi məhkəmələrin işləri üzrə kollegiyalarının" adları dəyişdirilərək müvafiq surətdə "mülki kollegiya, inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya" adlandırılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Ali Məhkəməsi məhkəmə kollegiyasının tərkibinin təşkili barədə" 8 oktyabr 2010-cu il tarixli qərarına əsasən məhkəmə kollegiyalarında işlərə baxılması üçün hər biri üç hakimdən ibarət olan məhkəmə tərkibləri, o cümlədən:

**Mülki kollegiya** - kollegiya sədrindən və on üç hakimdən ibarət beş məhkəmə tərkibi,

**İnzibati-iqtisadi kollegiya** - kollegiya sədrindən və altı hakimdən ibarət iki məhkəmə tərkibi,

**Cinayət kollegiyası** - kollegiya sədrindən və altı hakimdən ibarət iki məhkəmə tərkibi,

**Hərbi kollegiya** - kollegiya sədrindən və üç hakimdən ibarət bir məhkəmə tərkibi müəyyən edilmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin 2 iyul 2013-cü il tarixli № 706 İVQR saylı qərarı ilə Ali Məhkəmənin vakant hakim vəzifələrinə 10 nəfər hakim təyin edilmişdir.

Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 11 oktyabr 2013-cü il tarixli qərarı ilə məhkəmə kollegiyalarının tərkiblərinin təşkilinə yenidən baxılmış və Plenumun qərarına əsasən

**Mülki kollegiya** – kollegiya sədrindən də **18** nəfər hakimdən ibarət **6** məhkəmə tərkibi;

**İnzibati-İqtisadi kollegiya** – kollegiya sədrindən və **9** nəfər hakimdən ibarət **3** məhkəmə tərkibi;

**Cinayət kollegiyası** – kollegiya sədrindən və **6** nəfər hakimdən ibarət **2** məhkəmə tərkibi;

**Hərbi kollegiya** – kollegiya sədrindən və **3** nəfər hakimdən ibarət **1** məhkəmə tərkibi müəyyən edilmişdir.

Ali Məhkəmənin Plenumuna onun bütün hakimləri daxildir.

Ali Məhkəmənin Plenumu üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə Plenum səlahiyyətli sayılır.

Plenum baxılan məsələlər üzrə qərar qəbul edir.

Ali Məhkəmənin Plenumunun qərarları açıq səsvermə yolu ilə səsvermədə iştirak edənlərin səs çoxluğu ilə qəbul edilir. Plenumun üzvləri məhkəmə işləri üzrə səsvermədə bitərəf qala bilməzlər.

Məhkumun vəziyyətini ağırlaşdıran əsaslara görə məhkəmə qərarları, bəraət hökmü, bəraətverici əsaslarla cinayət işinin icraatına xitam verilməsi haqqında məhkəmə qərarları səsvermədə iştirak edən Plenum üzvlərinin üçdə iki səs çoxluğu ilə ləğv edilə bilər.

Ali Məhkəmənin hakimlərinin sayı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir və onlar bu vəzifəyə Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin edilir.

Ali Məhkəmə 2013-cü ildə Ali Məhkəmənin sədrindən, məhkəmə kollegiyalarının sədrlərindən və hakimlərindən - cəmi 41 hakimdən ibarət tərkibdə fəalliyyət göstərmiş, lakin 2013-cü ilin ikinci yarısında bir hakim pensiya yaşına çatdığına görə, Ali Məhkəmənin hakimi vəzifəsindən azad edilmişdir.

Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurası fəaliyyət göstərir.

# Azərbaycan Respublikasının Ali Məhkəməsi



## Ali Məhkəmədə 2013-cü ildə baxılan işlər haqqında ümumi məlumat

Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda 2013-cü ildə cəmi **7848** işə, o cümlədən:

- Mülki kollegiyada **4532** işə,
- İnzibati-iqtisadi kollegiyada **1612** işə, **(1216 inzibati, 396 iqtisadi işə)**
- Cinayət kollegiyasında **1742** nəfər haqqında **1559** işə,
- Hərbi kollegiyada **131** nəfər haqqında **124** işə,
- Plenumda isə **21** işə baxılmışdır.




Statistik məlumatların müqayisəli təhlili göstərir ki, Ali Məhkəmədə 2013-cü ildə baxılmış işlərin ümumi sayı 2012-ci illə müqayisədə **872** iş, **yəni 12,5 %** artmışdır.

Eyni zamanda müəyyən edilmişdir ki, 2012-ci ilə nisbətən 2013-cü ildə Ali Məhkəmədə baxılan işlərin sayı:

-Mülki kollegiyada **267 iş (6,2%) ;**

-İnzibati-iqtisadi kollegiyasında **532 iş (49,2%)**

-Cinayət kollegiyasında **55 iş, ( 3,6%);**

-Hərbi kollegiyada **11 iş ( 9,7%) ;**

-Plenumda isə **7 iş ( 50%) artmışdır.**

Məhkəmə statistikasına dair məlumatlardan görünür ki, Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən 2013-cü ildə **12980 nəfər**, o cümlədən birinci instansiya ümumi məhkəmələr tərəfindən **11310 nəfər,**

hərbi məhkəmələr tərəfindən isə **1670 nəfər** məhkum edilmiş, bu müddətdə **29 nəfər** barəsində bəraət hökmü çıxarılmışdır.

Respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2013-cü ildə ümumi məhkum edilənlərin sayı 2012-cı ilə nisbətən **42 nəfər** artmışdır.




Qeyd olunan müddətdə Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən ümumi məhkum edilənlərdən **3922 nəfər** barəsində hökmlərə apellyasiya şikayəti və protesti əsasında müvafiq apellyasiya məhkəmələri tərəfindən baxılmışdır ki, bu da respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən baxılan cinayət işləri üzrə məhkum edilənlərin cəmi **30,2 faizini** təşkil edir.

Məlumatın əhatə etdiyi dövrdə Apellyasiya Məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə çıxarılmış **3922 nəfər** haqqındakı hökm və qərarlardan **1683 iş üzrə 1930 nəfər** barəsində işə Ali Məhkəmədə kassasiya şikayəti və protesti əsasında baxılmışdır ki, bu da respublikanın apellyasiya məhkəmələrində 2013-cü ildə baxılmış cinayət işləri üzrə məhkum edilənlərin cəmi **49,2** faizini təşkil edir.

**Göründüyü kimi, 2013-cü ildə respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən baxılmış cinayət işləri üzrə məhkum olunmuş şəxslər barəsindəki hökmlərin 30,2 faizinin qanuniliyi apellyasiya qaydasında, apellyasiya məhkəmələrində cinayət mühakimə icraatı**

**qaydasında baxılmış işlər üzrə çıxarılmış hökm və qərarların 49,2 faizinin qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır.**

Bundan əlavə, Respublikanın birinci instansiya ümumi və inzibati-iqtisadi məhkəmələri tərəfindən 2013-cü ildə **156352** işə, o cümlədən **132744** mülki işlərə, **23608** inzibati-iqtisadi işlərə baxılmışdır ki, bu da bütövlükdə 2012-ci ildə baxılmış mülki və inzibati-iqtisadi işlərdən **16617** iş çoxdur.

Məlumatın əhatə etdiyi dövrdə, Respublikanın birinci instansiya ümumi və inzibati-iqtisadi məhkəmələri tərəfindən qətnamə və qərardad çıxarılmaqla **156352** işə baxılmışdır. Həmin işlər üzrə məhkəmə qətnamələrindən və qərardadlarından verilmiş apellyasiya şikayəti əsasında müvafiq apellyasiya məhkəmələrində **14048** işə baxılmışdır ki, bu da birinci instansiya ümumi və inzibati-iqtisadi məhkəmələrində baxılmış işlərin cəmi **9** faizini təşkil edir.

Qeyd olunan müddətdə respublikanın apellyasiya məhkəmələrində baxılmış mülki və inzibati-iqtisadi işlər üzrə qəbul edilmiş qətnamə və qərarlardan verilmiş kassasiya şikayətləri əsasında **6144** isə Ali Məhkəmənin müvafiq kollegiyalarında kassasiya qaydasında baxılmışdır ki, bu da apellyasiya qaydasında baxılmış mülki və inzibati-iqtisadi işlərin **43,7** faizini təşkil edir.

**Göründüyü kimi, Respublikanın birinci instansiya mülki və inzibati-iqtisadi məhkəmələri tərəfindən 2013-cü ildə baxılmış mülki və inzibati-iqtisadi işlər üzrə qəbul edilmiş yekun məhkəmə qərarlarının cəmi 9 faizinin qanuniliyi apellyasiya qaydasında, apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərarlarının isə 43,7 faizinin qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır.**

## Ali Məhkəmənin kollegiyalarında və Plenumunda icraat

Ali Məhkəmənin məhkəmə kollegiyalarında ədalət mühakiməsi işlərə (materiallara) qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hədlərdə kassasiya qaydasında baxılmaqla həyata keçirilir.

**Ali Məhkəmənin Mülki və İnzibati-İqtisadi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin mülki və inzibati-iqtisadi kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi məqsədi ilə iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Cinayət və Hərbi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Plenumunda işlərə** qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş Prokurorunun protesti və ya müdafiə tərəfin şikayəti əsasında əlavə kassasiya qaydasında və ya qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat qaydasında yenidən baxılır.

# Ali Məhkəmənin kollegiyalarında 2013-cü ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat:

## 1. Ali Məhkəmənin Mülki kollegiyası




Ali Məhkəmənin Mülki kollegiyasında (bundan sonra «**MK**») apellyasiya instansiyası məhkəmələrinin mülki kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin mülki kollegiyalarının qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

2013-cü ildə MK-nın icraatına 5262 iş daxil olmuşdur ki, bu da 2012-ci ildə icraatda olmuş 5030 mülki işdən 232 iş, yəni 4,6 % çoxdur.

Məlumatın əhatə etdiyi dövrdə MK-nin icraatında olan **5 262** mülki işdən **4 532 (86,1%) işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, 96 (1,8%) iş** baxılmadan qaytarılmış, **11 (0,2%) iş** baxışdan çıxarılmış, **623 (11,8%) iş** isə 2014-cü ilə qalıq keçirilmişdir.

MK-da 2012-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla **4265** mülki işə baxılmışdırsa, 2013-cü ildə bu işlərin sayı **267 (6,2 %) iş artaraq, 4532** mülki iş təşkil etmişdir.

Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, MK-da 2013-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan **4532** mülki işdən:

- **301 (6,6%)** iş **ailə münasibətləri üzrə mübahisələrə dair** ;
- **164 (3,6%)** iş **əmək münasibətləri üzrə mübahisələrə dair** ;

**- 658 (14,5%)** iş **mənzil mübahisələri üzrə**, **291 (6,4%)** iş **torpaq mübahisələri üzrə**, qalan **3 118 (68,8%)** iş isə digər məsələlərlə əlaqədar olmuşdur.

MK-da 2013-cü ildə kassasiya qaydasında baxılmış 4532 iş üzrə apellyasiya instansiya məhkəmələrinin -

- 3556 (78,5%) iş üzrə qətnamə və ya qərardadı dəyişdirilmədən saxlanılmış;

- 914 (20,2 %) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək, onlardan:

- 827 (18,2%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;

- 71 (1,6%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;

- 3 (0,1%) iş üzrə qətnamə ləğv edilərək, (ərizə) iddia baxılmamış saxlanılmış;

- 13 (0,4%) iş üzrə qətnamə ləğv edilərək iş üzrə icraata xitam verilmiş;

- 23 (0,5%) iş üzrə qətnamə və qərardad dəyişdirilmiş;

- 39 (0,9%) iş üzrə şikayətçi şikayətindən imtina etdiyi üçün kassasiya icraatına xitam verilmişdir.




**Ali Məhkəməsinin Mülki Kollegiyasında 2013-ci ildə** 1 xüsusi qərardad **qəbul edilmişdir.**

**MK-da 2013-cü ildə işlərə kassasiya qaydasında baxılmış işlərin nəticələrinə dair məlumat apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.**

## *2013-cü ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında*

## M Ə L U M A T

| Sıra | Apellyasiya instansiyası məhkəmələrinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Onlardan, ləğv olunaraq | | | | Kasasiya icraatına xitam verilib | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apellyasiya baxışı | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| 1 | **A R Apellyasiya Məhkəməsinin 2007-ci il 16 iyul tarixədək olan qərarlarından** | **2** | **-** | **2** | **2** | | | | | | |
| 2 | **Naxçıvan MR Ali Məhkəməsi üzrə** | **15** | **13** | **1** | **-** | **1** | **-** | **-** | **1** | **-** | |
| 3 | **Bakı Apellyasiya Məhkəməsi üzrə** | **2 649** | **2 093** | **517** | **452** | **53** | **-** | **12** | **26** | **13** | **-** |
| 4 | **Gəncə Apellyasiya Məhkəməsi üzrə** | **679** | **515** | **161** | **153** | **5** | **2** | **1** | **-** | **3** | **1** |
| 5 | **Şırvan Apellyasiya Məhkəməsi üzrə** | **356** | **295** | **53** | **48** | **4** | **1** | **-** | **4** | **4** | |
| 6 | **Sumqayıt Apellyasiya Məhkəməsi üzrə** | **539** | **400** | **131** | **125** | **6** | **-** | **-** | **6** | **2** | **-** |
| 7 | **Şəki Apellyasiya Məhkəməsi üzrə** | **292** | **240** | **49** | **46** | **3** | | | **2** | **1** | |
| **Cəmi** | | **4 532** | **3 556 78,5%** | **914 20,2 %** | **827 18,2 %** | **71 1,6 %** | **3 0,1 %** | **13 0,3 %** | **39 0,9 %** | **23 0,6 %** | **1** |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Apellyasiya instansiyası məhkəmələrinin qərarlarından verilmiş kassasiya şikayəti əsasında ləğv edilən qərarların təhlili göstərir ki, 2012-ci ilə nisbətən 2013-cü ildə baxılmış işlərin sayının artmasına baxmayaraq, 2013-cü ildə ləğv edilən qərarların sayı 1,2% azalmışdır.

2013-cü ildə kassasiya şikayəti ilə müraciət edənlər tərəfindən **49 307manat 50 qəpik** dövlət rüsumu ödənilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Mülki Kollegiyasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyindən xarici ölkələrin məhkəmələrinin qətnamələrinin tanınması və icrası ilə bağlı **161** ərizə daxil olmuş, həmin ərizələrdən **147**-nə baxılmış, **1** ərizə geri qaytarılmış, **49** ərizə isə ilin sonunda daxil olduğundan 2014-cü ilə keçmişdir.

## 2. Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyası

Ali Məhkəmənin İnzibati-iqtisadi kollegiyasında (bundan sonra «İİK») apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi məqsədi ilə iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin İnzibati-iqtisadi kollegiyasının qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.




İİK-nın icraatına 2013-cü ildə 2074 iş (o cümlədən 468 iqtisadi mübahisələrə dair, 1606 inzibati) daxil olmuşdur ki, bu da 2012-ci ildə icraatda olmuş işlərdən 713 iş, yəni 52,4% çoxdur.

İİK-nın icraatında olan **2 074 işdən 1612 (77,7%) işə** yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, **22 (1%) iş** baxılmadan geri qaytarılmış, **104 (5%) iş** üzrə kassasiya şikayəti mümkün sayılmamış, **336 (16,3%) iş** isə ilin sonunda daxil olduğu üçün 2014-cü ilə keçirilmişdir.

İİK-da 2012-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla **1080** işə baxıldığı halda, 2013-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla **1 612** işə baxılmışdır ki, bu da 2012-ci ilə nisbətən **532 (49,2%)** iş çoxdur.

Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, **İİK-da** 2013-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla **baxılan 1612 işdən: - 170 (10,5%) iş əmək münasibətləri üzrə mübahisələrə dair; - 188 (11,7%) iş vergi ödəmələri; - 45 (2,8%)** iş **mənzil mübahisələri üzrə; - 217 (13,5%) iş torpaq mübahisələri üzrə; - 84 (5,2%) iş borc mübahisələri; - 24 (1,5%) iş kredit müqaviləsi üzrə, - 24 (1,5%) iş sığorta müqaviləsi üzrə; - 224 (13,9%) iş müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarlarından, hərəkət və hərəkətsizliklərindən verilən ərizələr üzrə, qalan - 636 (39,4%) iş isə digər məsələlərlə əlaqədar olmuşdur.**

İİK-da 2013-cü ildə kassasiya qaydasında baxılmış 1612 iş üzrə çıxarılmış yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin:

- 1 147 (71,1%) **iş üzrə qətnamə və ya qərardadı dəyişdirilmədən saxlanılmış;**

- 440 (27,3%) iş **üzrə qətnamə və ya qərarları ləğv edilərək, onlardan:**

- 295 (18,3%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yeni apellyasiya baxışına qaytarılmış;**

- 32 (2%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;**




- 101 (6,3%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış;**

- 12 (0,7%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmişdir;**

- 14 (0,9%) iş **üzrə qətnamə və ya qərardad dəyişdirilmiş;**

- 11 (0,7%) iş **üzrə isə kassasiya icraatına xitam verilmişdir.**

**Bu məlumatlar aşağıdakı cədvəldə əks olunmuşdur.**

## *2013-cü ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasında apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında*

## MƏLUMAT

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Onlardan, ləğv olunaraq | | | | Kasasiya icraatına xitam | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apellyasiya baxışı | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam | | | |
| 1 | Bakı Apellyasiya Məhkəməsi | 1 126 | 831 | 277 | 185 | 22 | 63 | 7 | 9 | 9 | |
| 2 | Gəncə Apellyasiya Məhkəməsi | 120 | 74 | 46 | 31 | - | 12 | 3 | - | - | |
| 3 | Şırvan Apelyasiya Məhkəməsi | 104 | 65 | 37 | 26 | 3 | 8 | - | 1 | 1 | |
| 4 | Sumqayıt Apellyasiya Məhkəməsi | 159 | 103 | 51 | 39 | 5 | 6 | 1 | 4 | 1 | |
| 5 | Şəki Apellyasiya Məhkəməsi | 97 | 69 | 28 | 14 | 2 | 11 | 1 | - | - | |
| 6 | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 6 | 5 | 1 | - | - | 1 | - | - | - | |
| Cəmi | | 1 612 | 1 147<br>71,1% | 440<br>27,3 % | 295<br>18,3 % | 32<br>2% | 101<br>6,3% | 12<br>0,7 % | 14<br>0,9 % | 11<br>0,7% | |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, Ali Məhkəmənin İİK-da **2012-ci ildə apellyasiya instansiyası məhkəmələrinin kassasiya qaydasında** ləğv edilmiş qətnamə və ya qərardadlarının sayı 233 olduğu halda, 2013-cü ildə ləğv edilən qətnamə və qərarların sayı **440** olmuşdur ki, bu da 2012-ci ildə ləğv edilən qətnamə və qərarların sayından 207 **(88,8%) çoxdur.**

**2013-cü ildə kassasiya şikayəti ilə müraciət edən şəxslər tərəfindən 10778 manat** dövlət rüsumu ödənilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin İİK-na Azərbaycan Respublikası Ədliyyə Nazirliyindən xarici dövlətlərin məhkəmələrinin qətnamələrinin tanınması və icrası ilə bağlı **9** ərizə daxil olmuş, həmin ərizələrin **5-nə** baxılaraq, onların **4-ü** üzrə qətnamələrin tanınması və icrası təmin edilmiş, **1** iş üzrə tanınmadan imtina edilmiş, **2** iş üzrə ərizənin baxılması 2014-cü ilə keçirilmişdir.

## İnzibati-İqtisadi Kollegiyada baxılmış iqtisadi işlər üzrə məlumat

Məlumatların əhatə etdiyi dövrdə Ali Məhkəmənin İİK-nın icraatına iqtisadi mübahisələrə dair 468 iş daxil olmuşdur ki, bu da 2012-cı ildə icraatda olmuş iqtisadi işlərdən 53 iş, yəni (10,2%) **azdır.**

İİK-nın icraatında olan **468 iqtisadi işdən 396 (84,6%) işə** yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, **22 (4,7%) iş** baxılmadan geri qaytarılmış, **50 (10,7%) iş** isə ilin sonunda daxil olduğundan 2014-cü ilə qalıq keçirilmişdir.

İİK-da 2013-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla mahiyyəti üzrə baxılmış iqtisadi işlərin sayı 2012-ci ilə nisbətən **50 (11,2%) azalmışdır.**

**İİK-da** 2013-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla **baxılan 396 iqtisadi işdən: - 21 (5,3%) iş vergi ödəmələri, - 34 (8,6%) iş torpaq mübahisələrin - 77 (19,4%) iş borc mübahisələri, - 21 (5,3%) iş kredit müqaviləsi üzrə, - 24 (6%) iş sığorta müqaviləsi üzrə, - 35 (8,8%) iş müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarlarından, hərəkət və hərəkətsizliklərindən olan ərizələr üzrə, qalan - 184 (46,5%) iş isə digər məsələlərlə əlaqədar olmuşdur.**

İİK-da kassasiya qaydasında baxılmış 396 iqtisadi işlər üzrə çıxarılmış yekun məhkəmə qərarları və apellyasiya instansiya məhkəmələrinin

- 291 (73,5%) iş üzrə qətnamə və ya qərardadı dəyişdirilmədən saxlanılmış;

- 96 (24,2%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək, Onlardan:

- 73 (18,4%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yeni apellyasiya baxışına qaytarılmış;**

- 6 (1,5%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;**

- 10 (2,5%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış;**

- 7 (1,8%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmişdir;**

- 6 (1,5%) **iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş;**

- 3 (0,8%) **iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.**

**Bu məlumatlar apellyasiya məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.**

***2013-cü ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Inzibati-iqtisadi kollegiyasında apellyasiya instansiyası məhkəmələrinin iqtisadi mübahisələrə dair işlər üzrə qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında***

**M Ə L U M A T**

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Onlardan, ləğv olunaraq | | | | Kassasiya icraatına xitam | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apellyasiya baxışı | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| 1 | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 3 | 3 | - | - | - | - | - | - | - | |
| 2 | Bakı Apellyasiya Məhkəməsi | 279 | 209 | 63 | 44 | 4 | 10 | 5 | 2 | 5 | |
| 3 | Gəncə Apellyasiya Məhkəməsi | 25 | 18 | 7 | 7 | - | - | - | - | - | |
| 4 | Şırvan Apellyasiya Məhkəməsi | 32 | 20 | 11 | 9 | 2 | - | - | - | 1 | |
| 5 | Sumqayıt Apellyasiya Məhkəməsi | 40 | 27 | 12 | 11 | - | - | 1 | 1 | - | |
| 6 | Şəki Apellyasiya Məhkəməsi | 17 | 14 | 3 | 2 | | - | 1 | - | | |
| Cəmi | | 396 | 291 73,5 % | 96 24,2 % | 73 18,4% | 6 1,5 % | 10 0,8% | 7 1,8 % | 3 0,8 % | 6 1,5% | |

**QEYD:** İIK-da 2012-ci ildə kassasiya qaydasında baxılmış iqtisadi işlər üzrə apellyasiya instansiyası məhkəmələrinin **116 qətnamə və qərarları** ləğv olunduğu halda, 2013-cü ildə baxılmış iqtisadi işlər üzrə ləğv edilən qətnamə və qərarların sayı **20** iş üzrə **(17,2%)** azalmışdır.

## İnzibati-İqtisadi kollegiyada baxılmış inzibati işlər üzrə məlumat

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin İİK-nın icraatına 1 606 inzibati iş daxil olmuşdur ki, bu da 2012-cı ildə icraatda olmuş inzibati işlərdən 766 iş (91,2%) çoxdur.

Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, İİK-nın icraatında olan **1 606 inzibati işdən 1 216 (75,7%)** işə yekun məhkəmə qərarı qəbul edilməklə mahiyyəti üzrə baxılmış, **104 (6,5%) iş** üzrə kassasiya şikayəti mümkün sayılmamış, **286 (17,8%)** iş 2013-ci ilin sonunda daxil olduğundan növbəti ilə keçmişdir.

İİK-da 2013-ci ildə yekun məhkəmə qərarı qəbul edilməklə baxılan **1216 inzibati işdən: - 167 (13,8%) iş; əmək münasibətləri üzrə - 43 (3,5%)** iş **mənzil mübahisələri üzrə**, **183 (15%)** iş **torpaq mübahisələri üzrə**, **167 (13,8%) iş** vergi ödəmələri üzrə, **7(0,6%) iş** mülkiyyət hüququ ilə əlaqədar; **189 (15,5%) iş** müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarlarından və hərəkətlərindən (hərəkətsizliklərindən) olan ərizələr üzrə, qalan **460 (37,8%) iş** isə digər mübahisələrlə əlaqədar olmuşdur.

İİK-da 2013-cü ildə kassasiya qaydasında baxılmış 1 216 inzibati iş üzrə çıxarılmış yekun məhkəmə qərarları ilə apellyasiya instansiya məhkəmələrinin

- 856 (70,4%) iş üzrə qərar və ya qərardad dəyişdirilmədən saxlanılmışdır;

- 344 (28,3 %) iş üzrə qərar və ya qərardad ləğv edilərək, Onlardan:

- 222 (18,3%) **iş üzrə qərar və ya qərardad ləğv edilərək iş yeni apellyasiya baxışına qaytarılmış;**

- 26 (2,1%) iş **üzrə qərar və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;**

- 91 (7,5%) iş **üzrə qərar və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış;**

- 5 (0,4%) iş **üzrə qərar və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmişdir;**

- 5 (0,4%) **iş üzrə qərar və ya qərardad dəyişdirilmiş;**

- 11 (0,9%) **iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.**

**Bu məlumatlar apellyasiya məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.**

## *2013-cü ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi kollegiyasında apellyasiya instansiyası məhkəmələrinin inzibati işlər üzrə qərar və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında*

## MƏLUMAT

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Onlardan, ləğv olunaraq | | | | Kassasiya icraatına xitam | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apellyasiya baxışı | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam | | | |
| 1 | Bakı Apellyasiya Məhkəməsi | 847 | 622 | 214 25,3 % | 141 16,6% | 18 2,1 % | 53 6,3% | 2 0,2 % | 7 | 4 | |
| 2 | Gəncə Apellyasiya Məhkəməsi | 95 | 56 | 39 41,1 % | 24 25,3 % | - | 12 12,6 % | 3 3,2 % | | | |
| 3 | Şırvan Apellyasiya Məhkəməsi | 72 | 45 | 26 36,1 % | 17 23,6% | 1 1,4 % | 8 11,1 % | - | 1 | | |
| 4 | Sumqayıt Apellyasiya Məhkəməsi | 119 | 76 | 39 32,8 % | 28 23,5% | 5 4,2 % | 6 5% | | 3 | 1 | |
| 5 | Şəki Apellyasiya Məhkəməsi | 80 | 55 | 25 31,3 % | 12 15% | 2 2,5 % | 11 13,8 % | | | | |
| 6 | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 3 | 2 | 1 33,3 % | - | - | 1 33,3 % | - | - | - | |
| Cəmi | | 1 216 | 856 70,4 % | 344 28,3 % | 222 18,3 % | 26 2,1 % | 91 7,5% | 5 0,4 % | 11 0,9 % | 5 0,4% | - |

**QEYD:** İIK-da 2013-cı ildə **1 216 inzibati işə** baxılmışdır ki, bu da 2013-ci ildə baxılmış inzibati işlərin sayına görə **582 iş (91,8 %) çoxdir.**

Buna müvafiq olaraq 2013-cü ildə ləğv edilən qərarların sayı da **227 iş üzrə çoxalmışdır.**

**2013-cü ildə inzibati işlər üzrə kassasiya şikayəti ilə müraciət edən şəxslər tərəfindən 5989 manat 40 qəpik dövlət rüsumu ödənilmişdir.**

## 3. Ali Məhkəmənin Cinayət kollegiyası

Ali Məhkəmənin Cinayət kollegiyasında (bundan sonra «**CK**») apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyaları tərəfindən çıxarılmış hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

CK-da müharibə cinayətləri, hərbi xidmət əleyhinə olan cinayətlər və habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işləri, məhkəmyədək sadələşdirilmiş və ya xüsusi ittiham qaydasında şikayət üzrə materiallar istisna olmaqla, qalan cinayət işlərinə (materiallara) kassasiya qaydasında baxılır.




CK-ya 2013-cü ildə cəmi **2179 nəfər** haqqında **1949 iş, o cümlədən 1618 (74,3%)** nəfər haqqında **1487 (76,3%)** iş kassasiya şikayətinə, **561 (25,7%)** nəfər haqqında **462 (23,7%)** iş kassasiya protestinə əsasən daxil olmuşdur.

Məlumatın əhatə etdiyi dövrdə CK-da **1780 (81,7%) nəfər haqqında 1559 (80%) cinayət işi üzrə yekun məhkəmə qərarı çıxarılmış, 52 (2,4%) nəfər** haqqında **49 (2,5%)** iş üzrə kassasiya şikayəti qanunvericilikdə nəzərdə tutulan tələblərə uyğun olmadığından verildiyi üçün baxılmamış saxlanılmış, **347 (15,9%) nəfər haqqında 341 (17,5%) iş** isə ilin sonunda daxil olduğundan 2014-cü ilə keçirilmişdir.

2013-cü ildə CK-da ümumilikdə kassasiya qaydasında mahiyyəti üzrə **1780 nəfər** haqqında **1559 işə** baxılaraq, qəbul edilmiş yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin:

**- 1138(63,9%) nəfər haqqında 994 (63,8%) iş üzrə qərarları dəyişdirilmədən saxlanılmış;**




**- 269 (15,1% ) nəfər haqqında 231 (14,8%) iş üzrə qərarı ləğv olunaraq, iş yeni apellyasiya baxışına qaytarılmış;**
**- 5 nəfər (0,3% haqqında 3(0,2%) cinayət işi üzrə qərarlar ləğv edilərək bu iş üzrə icraata xitam verilmiş;**
**- 81 (4,6 %) nəfər haqqında 70 (4,5%) iş üzrə qərarlar dəyişdirilmiş;**
**- 3(0,2%) nəfər haqqında 3(0,2%) iş üzrə kassasiya şikayətindən imtina edildiyindən kassasiya icraatına xitam verilmiş;**
**- 76 (4,3%) nəfər haqqında 73 (4,7%) iş üzrə kassasiya şikayəti verilmə müddəti bərpa olunmamış;**
**- 213 (12%) nəfər haqqında 188 (12%) iş üzrə olan kassasiya şikayəti məhkumların, onların müdafiəçilərinin və habelə dövlət ittihamçılarının ərizələrinə əsasən geri qaytarılmışdır:**

Ali Məhkəmənin CK-da 2013-cü ildə apellyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılma nəticələrinə dair məlumatlar ayrı-ayrılıqda aşağıdakı cədvəldə əks olunmuşdur.

***2013-cü ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasında apelyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

**M Ə L U M A T**

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub, onlardan | Ləğv olunub | | Kassasiya icraatına xitam verilib | Dəyişdirilib | Kassasiya şikayəti qeri qaytarılıb | Müddət bərpa edilməyib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apellyasiya | İş üzrə icraata xitam verilib | | | | | |
| 1 | **AR Apellyasiya Məhkəməsinin 2007-ci il 16 iyul tarixədək olan qərarlarından** | **7** | **-** | **1** | **1** | **-** | **-** | **-** | **-** | **6** | |
| 2 | **Naxçıvan MR Ali Məhkəməsi** | **3** | **3** | **-** | **-** | **-** | **-** | **-** | **-** | **-** | |
| 3 | **Bakı Apellyasiya Məhkəməsi** | **1 039** | **665** | **142** | **140** | **2** | **2** | **51** | **138** | **41** | **2** |
| 4 | **Gəncə Apelyasiya Məhkəməsi** | **179** | **118** | **30** | **27** | **3** | **-** | **7** | **14** | **10** | **-** |
| | **Şırvan Apellyasiya Məhkəməsi** | **238** | **155** | **26** | **26** | **-** | **1** | **6** | **39** | **11** | **-** |
| 6 | **Sumqayıt Apellyasiya Məhkəməsi** | **232** | **137** | **61** | **61** | **-** | **-** | **14** | **13** | **7** | **-** |
| 7 | **Şəki Apellyasiya Məhkəməsi** | **82** | **60** | **9** | **9** | **-** | **-** | **3** | **9** | **1** | |
| **Cəmi** | | **1 780** | **1 138 63,9%** | **269 15,1 %** | **264 14,8 %** | **5 0,3 %** | **3 0,2%** | **81 4,6 %** | **213 12%** | **76 4,3%** | **2** |

**QEYD: Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin CK-da 2012-ci ildə 1742 nəfər haqqında 1504 işə baxıldığı halda, 2013-cü ildə 1780 nəfər haqqında 1559 işə baxılmışdır ki,** bu da 2013-cü ildə baxılmış işlərin sayına görə **55 (3,6%) iş**, şəxslərin sayına görə **38 (2,2%) nəfər artmışdır.** Buna müvafiq olaraq 2013-cü ildə baxılmış işlər üzrə **10 (3,9%)** nəfər **20 iş (9,5%)** haqqında ləğv edilmiş hökmlərin sayı artmışdır.

Bundan əlavə Ali Məhkəmənin Cinayət Kollegiyasının hakimləri tərəfindən 2013-cü ildə İnsan hüquqları üzrə Avropa Məhkəməsində kommunikasiya edilən Azərbaycan Respublikasının vətəndaşlarının şikayətləri üzrə Ali Məhkəməyə göndərilmiş sorğu məktubları əsasında **6** nəfər haqqında cinayət işləri tələb edilərək öyrənilmiş və sorğularda qoyulmuş suallara cavab məktubları hazırlanaraq Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsinə göndərilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Cinayət kollegiyasının hakimləri tərəfindən **95 nəfərin** əlavə kassasiya şlkayətləri ilə bağlı qərar layihələri hazırlanmış, əfv komissiyasından Ali Məhkəməyə daxil olmuş materiallar əsasında **425 rəy** hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin əfv məsələləri üzrə sektoruna göndərilmişdir.

Qeyd olunan müddətdə Azərbaycan Respublikası Baş Prokurorunun vəsatətlərinə əsasən prokurorluğun **2 nəfə**r sabiq əməkdaşı barəsində olan cinayət işləri üzrə cinayət məsuliyyətinə cəlb edilməsi və barələrində həbs qətimkan tədbirinin seçilməsinə razılıq verilməsinə dair qərar layihələri hazırlanmışdır.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Cinayət Kollegiyasının hakimləri məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin əməkdaşları ilə birlikdə yol-nəqliyyat hadisələrinin baş vermə səbəblərinin aradan qaldırılması, bu hadisələrlə bağlı aparılan təhqiqat, istintaq və ekspertizalar zamanı sui-istifadə hallarının qarşısının alınması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması ilə bağlı tədbirlər haqqında" 26 dekabr 2012-ci il tarixli Sərəncamının icrası ilə bağlı 2012-ci ildə respublika məhkəmələri tərəfindən baxılan bu növ işlər tələb edilib öyrənilərək ümumiləşdirilmiş, ümumiləşdirmənin nəticələri 15 noyabr 2013-cü il tarixdə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda Azərbaycan Respublikası Ədliyyə Naziri, Baş Prokuroru, Daxili İşlər Naziri və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdirinin, apellyasiya və birinci instansiya məhkəmələrinin sədrlərinin iştirakları ilə geniş müzakirə edilmişdir. Təhlil edilmiş işlərə baxılarkən məhkəmələrin fəaliyyətində nöqsan və çatışmazlıqların aradan qaldırılması və bu işlər üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması, habelə qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə Plenum tərəfindən müvafiq qərarlar qəbul edilmiş, Azərbaycan Respublikasının Cinayət və İnzibati Xətalar Məcəlləsində, "Yol hərəkəti haqqında" Qanunlarda dəyişikliklər edilməsi haqqında qanun layihələri hazırlanaraq Milli Məclisə təqdim edilmiş, Azərbaycan Respublikasının Baş Prokuroruna, Daxili İşlər və Nəqliyyat Nazirlərinə məlumat xarakterli, bütün məhkəmələrə isə - icmal məktublar göndərilmişdir.

## 4. Ali Məhkəmənin Hərbi kollegiyası

Ali Məhkəmənin Hərbi kollegiyasında (bundan sonra «HK») apellyasiya instansiyası məhkəmələrinin hərbi kollegiyaları tərəfindən çıxarılmış hökm və qərarlardan verilən kassasiya şikayətinə və kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəmələrinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyalarının çıxardıqları hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata əsasən müharibə cinayətlərinə, hərbi xidmət əleyhinə olan cinayətlərə və habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işlərinə kassasiya qaydasında baxılır.

**2013-cü ildə HK-ya cəmi 189 nəfər haqqında 158 cinayət işi, o cümlədən 139 nəfər (73,5%) haqqında 118 (74,7%) iş kassasiya şikayəti, 50 nəfər (26,5%) haqqında 40 (25,3%) iş isə kassasiya protestinə əsasən daxil olmuşdur.**

**Məlumatın əhatə etdiyi dövrdə HK-da 150 (79,4%) nəfər haqqında 124 (78,5%) cinayət işinə baxılmış, 39 (20,6%) nəfər haqqında 34 (21,5%) cinayət işi icraata ilin sonunda daxil olduğu üçün həmin işlərin baxılması 2014-cü ilə təyin edilmişdir.**

**2013-cü ildə HK-da kassasiya qaydasında baxılmış 150 nəfər haqqında 124 iş üzrə çıxarılmış yekun qərarı ilə apellyasiya instansiya məhkəmələrinin:**

**- 71 nəfər (47,3%) haqqında 60 (48,4%) iş üzrə qərarlar dəyişdirilmədən saxlanılmış;**

**- 26 nəfər (17,3%) haqqında 23 iş üzrə (17,3%) qərarlar məhkumlara təyin edilmiş cəzalarla əlaqədar dəyişdirilmiş;**

**- 24 nəfər (16%) haqqında 15 iş üzrə (12,1%) qərarlar ləğv edilərək, bu işlər yeni apellyasiya baxışına qaytarılmış;**

**- 4 nəfər (2,7%) haqqında 4 (3,2%) cinayət işi üzrə kassasiya şikayəti vermə müddətinin bərpasına dair vəsatət təmin edilməmiş;**

**- 25 nəfər (16,7%) barəsində 22 (17,8%) cinayət işi üzrə kassasiya şikayəti məhkumların və ya onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmışdır.**

**Qeyd olunan məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə ayrı-ayrılıqda aşağıdakı cədvəldə əks olunmuşdur.**

***2013-cü ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyasında apelyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

**M Ə L U M A T**

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb (nəf.) | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub, onlardan | Ləğv olunub | | Kassasiya icraatına xitam verilib | Dəyişdirilib | Kassasiya şikayəti qeri qaytarılıb | Müddət bərpa edilməyib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apellyasiya | İş üzrə icraata xitam verilib | | | | | |
| 1 | AR Apellyasiya Məhkəməsi | 1 | | | | | | | | 1 | |
| 2 | Naxçıvan MR Ali Məhkəməsi | 8 | 6 | | | | | 1 | 1 | | |
| 3 | Bakı Apellyasiya Məhkəməsi | 36 | 16 | 9 | 9 | | | 6 | 5 | | |
| 4 | Gəncə Apellyasiya Məhkəməsi | 50 | 19 | 9 | 9 | | | 10 | 11 | 1 | |
| 5 | Şırvan Apellyasiya Məhkəməsi | 31 | 19 | 1 | 1 | | | 3 | 7 | 1 | |
| 6 | Sumqayıt Apellyasiya Məhkəməsi | 17 | 9 | 5 | 5 | | | 2 | - | 1 | |
| 7 | Şəki Apellyasiya Məhkəməsi | 7 | 2 | - | - | | | 4 | 1 | | |
| Cəmi | | 150 | 71<br>47,3 % | 24<br>16% | 24<br>16% | - | - | 26<br>17,3% | 25<br>16,7% | 4<br>2,7 % | |




**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin HK-da 2012-ci ildə **131** nəfər haqqında **113 işə** baxıldığı halda, 2013–cü ildə **150 nəfər** haqqında **124 işə** baxılmışdır ki, bu da 2012-ci ilə nisbətən **19 nəfər** haqqında **11 iş** çoxdur.

Bundan əlavə 2012–ci ildə **19 nəfər** haqqında **13 iş üzrə məhkəmə qərarı** ləğv olunduğu halda, 2013-ci ildə isə **24** nəfər haqqında **15** iş üzrə məhkəmə qərarı ləğv olunmuşdur ki, bu da 2012-ci il ilə müqayisədə **5 nəfər haqqında 2 iş çoxdur.**




Məlumatın əhatə etdiyi dövrdə Hərbi Kollegiyanın hakimləri tərəfindən 17 əlavə kassasiya şlkayətləri və yeni açılmış hallarla bağlı qərar layihələri hazırlanaraq, Ali Məhkəmənin sədrinə təqdim olunmuş, əfv komissiyasından daxil olmuş materiallar əsasında **236 rəy** hazırlanaraq Azərbaycan Respublikası Prezident Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin əfv məsələləri üzrə sektoruna göndərilmişdir.

## *5. Ali Məhkəmənin Plenumu*

### Ali Məhkəmənin Plenumunun işi haqqında məlumat

*"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 79-cu maddəsinə əsasən* ***Ali Məhkəmənin Plenumunda işlərə*** *qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş Prokurorunun protesti və ya müdafiə tərəfin şikayəti əsasında əlavə kassasiya qaydasında və ya qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat qaydasında yenidən baxılır.*

*2013-cü ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 6 iclası keçirilmişdir.*

*Ali Məhkəmənin* ***01 fevral 2013-cü il tarixli*** *Plenum iclasında "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 30.4-cü maddələrinin konstitusiya icraatı qaydasında şərh edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu verilməsi haqqında",*

***22 aprel 2013-cü il tarixli*** *Plenum iclasında Bəktaşi Səadət İnayət qızı, Əsədov Mehdi Fəyyaz oğlu və Şirinov İkram Sabir oğlunun Vəkillərin İxtisas Komissiyasına üzv təyin edilməsi barədə,*

***24 iyun 2013-cü il tarixli*** *Plenum iclasında "İpoteka haqqında qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair",*

***11 oktyabr 2013-cü il tarixli*** *Plenum iclasında "Azərbaycan Respublikası Ali Məhkəməsi məhkəmə kollegiyalarının tərkibinin təşkili barədə" qərarları qəbul edilmişdir.*

***15 noyabr 2013-cü il tarixli*** *Plenum iclasında "Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" və "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verilməsi haqqında",*

***27 dekabr 2013-cü il tarixli*** *Plenum iclasında "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 37.3.4-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının Preambulasına, 12-ci maddəsinin I hissəsinə, 16-cı maddəsinin I hissəsinə, 25-ci maddəsinin I, III, IV və V hissələrinə, 29-cu maddəsinin IV hissəsinə, 35, 38 və 71-ci maddələrinə*

*uyğunluğunun yoxlanılması barədə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə sorğu verilməsi haqqında" və "Bakı Apellyasiya Məhkəməsinin hakimi Şirinov İkram Sabir oğlu Vəkillərin İxtisas Komissiyasının üzvü təyin edilməsi" barədə qərarlar qəbul edilmişdir.*

***Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Plenumunda* 21** *işə, o cümlədən* ***15 mülki işə, 1 inzibati və 5 cinayət işinə*** *baxılıb müvafiq qərarlar qəbul edilmişdir.*

*Qeyd olunan müddətdə Ali Məhkəmənin Plenumunda baxılmış 15 mülki işdən 2-si İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən,* ***4-ü*** *Konstitusiya Məhkəməsinin qərarlarına əsasən,* ***9-u*** *isə yeni açılmış hallara dair ərizəyə əsasən baxılmışdır.*

*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarına əsasən baxılmış mülki işlər üzrə kassasiya instansiya məhkəməsinin və apellyasiya instansiya məhkəməsinin qərarları ləğv edilərək iş yeni apellyasiya baxışına göndərilmişdir.*

*Konstitusiya Məhkəməsinin qərarı əsasında baxılmış mülki işlər üzrə kassasiya instansiya məhkəməsinin və apellyasiya instansiya məhkəməsinin qərarları ləğv edilərək iş yeni apellyasiya baxışına göndərilmişdir.*

*Yeni açılmış hallar üzrə ərizəyə əsasən* ***1*** *işə yenidən baxılması rədd edilmiş,* ***1*** *iş üzrə müraciət təmin edilməyərək Plenumun baxışından çıxarılmış,* ***1*** *iş üzrə müraciət təmin edilərək birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilərək, mülki iş yenidən baxılması üçün birinci instansiya məhkəməsinə, digər 7 mülki iş üzrə isə yeni açılmış hallar üzrə ərizə təmin edilərək məhkəmə aktları ləğv edilmiş, mülki işlər yenidən baxılması üçün birinci instansiya məhkəmələrinə göndərilmişdir.*

***Ali Məhkəmənin Plenumunda*** *2013-cü ildə cəmi –* ***1 inzibati işə*** *baxılıb müvafiq qərar qəbul edilmişdir. Həmin işə Konstitusiya Məhkəməsinin qərarına əsasən baxılaraq iş üzrə kassasiya və apellyasiya instansiya məhkəmələrnin qərarları ləğv edilərək iş yeni apellyasiya baxışına göndərilmişdir.*

***Ali Məhkəmənin Plenumunda*** *2013-cü ildə cəmi –* ***5 cinayət işinə*** *baxılıb müvafiq qərarlar qəbul edilmişdir. Həmin işlərdən* ***3-ü*** *İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən,* ***2-işə*** *yeni açılmış hallar üzrə Azərbaycan Respublikası Baş Prokurorluğunun ərizəsinə əsasən baxılmışdır.*

*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarına əsasən baxılmış cinayət işləri üzrə kassasiya və apellyasiya instansiya məhkəmələrinin qərarları ləğv edilərək işlər yeni apellyasiya baxışına, yeni açılmış hallar üzrə Azərbaycan Respublikası Baş Prokurorunun ərizələri təmin edilərək məhkəmə aktları ləğv edilib, işlər hazırlıq icraatı mərhələsindən baxılması üçün birinci instansiya məhkəməsinə göndərilmişdir.*

***Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunda***
***2012 və 2013-cü illər ərzində baxılmış işlər barədə müqayisəli***
**M Ə L U M A T**

| *İşlərin baxılma əsasları* | ***2012-ci il*** | ***2013-cü il*** | ***Fərq*** | |
|---|---|---|---|---|
| | | | ***artma*** | ***azalma*** |
| *Əlavə kassasiya şikayətlərinə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış mülki işlər* | *5* | *9* | *4* | - |
| *Əlavə kassasiya şikayətlərinə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış iqtisadi və inzibati işlər* | - | - | - | - |
| *Əlavə kassasiya şikayəti və protestləri, təqdimata və yeni açılmış hallara əsasən baxılmış cinayət işləri* | *2* | *2* | - | - |
| *Konstitusiya Məhkəməsinin qərarlarına əsasən, qərarları qüvvədən düşmüş hesab edilən mülki işlər* | *5* | *4* | - | *1* |
| *Konstitusiya Məhkəməsinin qərarlarına əsasən qərarları qüvvədən düşmüş hesab edilən iqtisadi və inzibati işlər* | - | *1* | *1* | - |
| *Konstitusiya Məhkəməsinin qərarlarına əsasən qərarları qüvvədən düşmüş hesab edilmiş cinayət işləri* | - | - | - | - |
| *İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən mülki işlər* | *1* | *2* | *1* | - |
| *İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən cinayət işləri* | *1* | *3* | *2* | - |
| ***Cəmi*** | *14* | *21* | *7* | - |

# Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi

Ali Məhkəmədə onun fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatını həyata keçirmək üçün məhkəmə Aparatı və İşlər İdarəsi fəaliyyət göstərir.

Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi öz səlahiyyətlərinə görə birinci kateqoriya dövlət orqanının məhkəmə aparatıdır, inzibati və yardımçı vəzifə tutan dövlət qulluqçularından ibarətdir.

«Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı ilə ölkəmizin məhkəmə sisteminin inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır.

Ali Məhkəmənin və bütövlükdə məhkəmə sisteminin informasiya sisteminin yaradılması və təkmilləşdirilməsi vahid razılaşdırılmış prinsiplər əsasında qurulmuş, bu da Ali Məhkəmə aparatının və hakimlərin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi keyfiyyətcə yeni mərhələyə keçidin əsasını qoymuşdur.

Ali Məhkəmədə İnformasiya texnologiyalarının tətbiqi sahəsində əsas məqsəd hakimlərin və məhkəmə aparatının fəaliyyətinin müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə müasirləşdirilməsi və prinsipcə yeni formaya keçməsi ilə məhkəmənin fəaliyyətinin effektivliyinin artırılması təşkil edir.

Bu isə «Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı və Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan) yerinə yetirilməsi ilə birbaşa bağlı olub aşağıdakı işlərin yerinə yetirilməsini nəzərdə tutur:

- mühakimə üsulunun təkmilləşdirilməsi və ədalət mühakiməsinin daha da əlyetərli olmasının təmin olunması;
- hakimlərin və məhkəmə aparatının fəaliyyətinin effektivliyinin artırılması;
- məhkəmə sisteminin informasiya fəzasında eyniliyinin təmin olunması;
- əhali və təşkilatlar üçün məhkəmələrin daha da aşkarlığının təmin olunması.

Qeyd olunan vəzifələrin yerinə yetirilməsi məqsədi ilə Ali Məhkəmədə bir sıra işlər həyata keçirilir:

- məhkəmə işlərinin, vətəndaşların və təşkilatların ərizə və şikayətlərinin baxılma müddətinin müasir informasiya-kommunikasiya texnologiyalarının – internet, elektron sənəd dövriyyəsi, böyük həcmli məlumatların işlənməsi və saxlanması, video-konfrans əlaqə və s. texnologiyaların kompleks şəkildə tətbiqi vasitəsi ilə qısaldılması;

- məhkəmədə kargüzarlığın və məhkəmə statistikasının məlumatlarının keyfiyyətinin artırılması;

- Ali Məhkəmənin digər instansiya məhkəmələri, Respublika Prokurorluğu, Ədliyyə Nazirliyi və digər dövlət idarəetmə orqanları ilə məlumat mübadiləsinin operativliyinin artırılması;

- Qərarların qəbul edilməsi üçün müasir analitik metodlarının tətbiqi vasitəsi ilə Ali Məhkəmənin fəaliyyətinin bütün sahələrində administrativ-idarəetmə proseslərinin məlumat təminatının keyfiyyətinin yüksəldilməsi;

- Ali Məhkəmənin avtomatlaşdırılmış məlumat sisteminin təhlükəsizliyinin kompleks şəkildə təmin olunması;

- Avtomatlaşdırılmış idarəetmə sisteminin qarşısında qoyulmuş tələblərə uyğun olaraq informasiya vasitələrinin etibarlılığının və səmərəliliyinin kompleks şəkildə artırılması, təkmilləşdirilməsi və informasiya-kommunikasiya vasitələrinin inkişaf etdirilməsi üçün maddi-texniki və maliyyə təminatının olması;

- müasir informasiya texnologiyalarının tətbiqi sahəsində effektivliyinin artırılması məqsədi ilə hakimlərin və məhkəmə aparatı işçilərinin ixtisasının artırılması.

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nda (Elektron Azərbaycan) nəzərdə tutulmuş " Ali Məhkəmənin "Elektron kargüzarlıq və sənəd dövriyyəsi" sisteminin təkmilləşdirilməsi, daha müasir texnologiyaların tətbiqi ilə beynəlxalq standartlara uyğunlaşdırılması" bəndinin yerinə yetirilməsi məqsədi ilə informasiya texnologiyalarının tətbiqi sahəsində müəyyən işlər yerinə yetirilmiş və 2014-2016-ci illərdə yerinə yetiriləcək işlərin planı hazırlanmışdır.

2013-ci ildə mövcud "Elektron sənəd dövriyyəsi sistemdə istifadəçilərin işinin yüngülləşdirilməsi və sənədlərin işlənməsini sürətləndirmək məqsədi ilə müəyyən dəyişikliklər edilmiş, işlərin yerinə yetirilməsinə nəzarəti təmin etmək üçün xüsusi daxili axtarış-nəzarət sistemi təkmilləşdirilmiş, "İnternet portal **www.supremecourt.gov.az**"-da "E-Xidmətlər" bölməsinə dəyişikliklər və yeni bəndlər, "Təhlil və statistika sistemi"nə yeni alətlər və statistik formalar əlavə edilmiş, yeni nəzarət sistemi yaradılmış, işlərin avtomatik bölgüsünün aparılması üçün xüsusi proqram hazırlanmış, Ali Məhkəmənin kadrlar sektoru üçün xüsusi proqram kompleksində dəyişikliklər edilmiş, mühasibat uçotu proqram təminatında qanunvericiliyə uyğun dəyişikliklər edilmişdir.

Ali Məhkəmənin informasiya sisteminin yenilənməsi, məhkəməyə daxil olan işlərin elektron formada işlənməsi üçün proqram-texniki kompleksin yaradılması, fiziki və hüquqi şəxslərin məhkəmələrə müraciətlərinin, iddia ərizələrinin, müxtəlif məhkəmə instansiyalarına şikayətlərin elektron formada təqdim edilməsi üçün xüsusi sistemin yaradılması ilə bağlı prosessual qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflər verilmişdir.

Ali Məhkəmə Aparatının strukturunda müvafiq dəyişikliklər edildikdən, yəni insan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi təşkil edildikdən sonra Aparat və İşlər İdarəsi 2013-cü ildə aşağıdakı tərkibdə fəaliyyət göstərmişdir :

**Ali Məhkəmənin Aparatı**

1. Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi
2. Beynəlxalq əlaqələr şöbəsi
3. Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsi
4. Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi
5. Unsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi
6. Dövlət qulluğu və kadr məsələləri sektoru
7. İcra məmurları sektoru
8. Ali Məhkəmə Plenumunun katibliyi
9. Mülki kollegiyanın katibliyi
10. Inzibati-İqtisadi kollegiyanın katibliyi
11. Cinayət kollegiyasının katibliyi
12. Hərbi kollegiyanın katiblyi

**Ali Məhkəmənin İşlər İdarəsi**

1. İnformasiya Texnologiyaları şöbəsi
2. Maliyyə-Təsərrüfat şöbəsi
3. Ali Məhkəmənin Xatirə Muzeyi
4. Kitabxana
5. Arxiv
6. Ali Məhkəmənin mətbəəsi

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin iş planına uyğun olaraq Aparatın müvafiq şöbələri tərəfindən müəyyən işlər görülmüşdür.

Belə ki, Ali Məhkəmənin hakimlərinin iştirakı ilə Aparatın Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin əməkdaşları tərəfindən Azərbaycan Respublikası Prezidentinin "Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmə ilə bağlı tədbirlər haqqında" 26 dekabr 2012-ci il tarixli Sərəncamının icrası ilə bağlı respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2012-ci ildə CM-nin 263-cü maddəsi ilə baxılmış cinayət işləri üzrə məhkəmə təcrübəsi ümumiləşdirilmiş, ümumiləşdirmənin nəticəsi 15 noyabr 2013-cü il tarixdə Azərbaycan Respublikası Ali

Məhkəməsinin Plenumunda müzakirə edilərək bu işlər üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə müvafiq qərarlar qəbul edilmişdir.

Bundan əlavə məlumatın əhatə etdiyi dövrdə Respublikanın İnzibati-İqtisadi Məhkəmələri tərəfindən 2011-2012-ci və 2013-cü ilin birinci yarısında baxılmış inzibati işlər üzrə Azərbaycan Respublikası İnzibati-Prosessual Məcəlləsinin 8-9-cu (məhkəmə aidiyyətinin müəyyənləşdirilməsi) və 35-ci (iddianın mümkünlüyü) maddələrinin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi ümumiləşdirilmiş, ümumiləşdirmənin nəticəsinin Ali Məhkəmənin Plenum iclasında müzakirə edilməsi nəzərdə tutulmuşdur.

Digər ümumiləşdirmələrin nəticəsinin müzakirəsi hazırda gündəmdədir.

Aparatın Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsinin əməkdaşları tərəfindən analitik işlərin həyata keçirilməsi, qanunların və digər normativ aktların, normativ xarakterli aktların, o cümlədən onlara edilmiş əlavə və dəyişikliklərin sistemləşdirilməsi və kodifikasiyası təmin edilmiş, Ali Məhkəməyə daxil olmuş qanunvericilik aktlarının və onların layihələrinin öyrənilməsi həyata keçirilmiş, bu layihələrlə əlaqədar rəy və təkliflər müvafiq surətdə sorğu edən təşkilatlara göndərilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinə **21853** ərizə şikayət və müraciət daxil omuşdur ki, bu da 2012-ci ildə daxil olmuş ərizə, şikayət və müraciətlərin ümumi sayı ilə müqayisədə **1107 (5,3%)** ərizə və müraciətin artmasına baxmayaraq, əlavə kassasiya şikayətləri ilə bağlı müraciətlərin sayı **130 (6,3%)** azalmışdır.

Vətəndaşların ərizə, şikayət və digər müraciətlərinə vaxtında baxılması, onlara hüquqi cəhətdən əsaslı və düzgün cavab verilməsi daim diqqət mərkəzində olmuş, Ali Məhkəməyə daxil olmuş ərizə, şikayət və digər müraciətlərdən **6706-sı ( %)** icraatda olan işlərlə bağlı olduğundan kassasiya şikayətinə əlavə olunması və baxılması üçün Ali Məhkəmənin müvafiq kollegiyalarına verilmiş, bu şikayətlərdən **1921-i** əlavə kassasiya şikayətləri olmuş**, 13226** müraciətə isə Ali Məhkəmənin rəhbərliyi və Aparatı tərəfindən baxılmışdır.

Ali Məhkəmənin sədri və müvafiq kollegiya sədrləri tərəfindən vətəndaşların qəbulu müəyyən olunmuş günlərdə və saatlarda həyata keçirilir. Qəbul barədə ətraflı məlumat Ali Məhkəmənin internet səhifəsində (azərbaycan, rus və ingilis dillərində) yerləşdirilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Aparatının Vətəndaşların qəbulu və müraciətlərlə iş şöbəsinin əməkdaşları tərəfindən **750** nəfər qəbul edilərək, onların şikayətləri dinlənilmişdir.

Bundan əlavə qeyd olunan müddətdə Ali Məhkəmənin sədri tərəfindən **116** nəfər və kollegiya sədrləri tərəfindən **181** nəfər qəbul edilmiş və onlara müraciət etdikləri məsələlər üzrə müvafiq iahlar verilmişdir.

## Ali Məhkəmənin 2013-cü ildə beynəlxalq əlaqələri.

***Ali Məhkəmənin Beynəlxalq hüquq təşkilatları ilə əlaqələri 2012-ci ildə daha da genişlənmişdir.***

***Dünyanın mütərəqqi ölkələrinin, xususilə Avropa İttifaqının üzvü olan ölkələrin məhkəmə hüquq təşkilatları ilə Bakıda görüşlər keçirilmiş, həmçinin bir sıra ölkələrə qarşılıqlı səfərlər və təcrübə mübadilələri təşkil edilmişdir.***

***Bütün bunlar Ali Məhkəmənin fəaliyyətinin daha da müasirləşməsinə və təkmilləşməsinə xidmət etmişdir.***

**Yanvarın 25-də** İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin dəvəti ilə Ali Məhkəmənin sədri Ramiz Rzayev Fransanın Strasburq şəhərində keçirilən 2013-cü il üzrə məhkəmə ilinin açılışına həsr olunmuş təntənəli iclasda və "İqtisadi böhran zamanı Avropa İnsan hüquqları üzrə Konvensiyanın implementasiyası" mövzusunda keçirilmiş seminarda iştirak etmişdir. Tədbirdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 2012-ci il ərzindəki fəaliyyətinə nəzər salınmış, Avropa konvensiyasının müddəalarının və Avropa Məhkəməsinin təcrübəsinin iqtisadi böhran dövründə tətbiqi və qarşılıqlı məhkəmə əməkdaşlığının təcrübi məsələlərinə dair fikir mübadiləsi aparılmışdır.

**Fevralın 15-də** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev Ukrayna Ali Məhkəməsi yaradılmasının 90 illik yubileyi münasibətilə Kiyevdə təşkil olunmuş beynəlxalq elmi-praktik konfransında iştirak etmişdir. Konfransın açılışında Ali Məhkəmənin sədri R. Rzayev çıxış edərək, Ukrayna Ali Məhkəməsi yaradılmasının 90 illik yubileyi münasibətilə həmkarlarını təbrik etmiş, fəaliyyətlərində uğurlar arzulamışdır.

**Fevralın 21-də** Ali Məhkəməinin sədri Ramiz Rzayev Rusiya Federasiyası Ali Məhkəməsinin 90 illik yubiley tədbirlərində iştirak etmək üçün Moskva şəhərində səfərdə olmuşdur. Səfər çərçivəsində Azərbaycan Ali Məhkəməsinin sədri görüşlərdə və söhbətlərdə məhkəmə hüquq sahəsində respublikamızda həyata keçirilən tədbirlər, MDB ölkələri ilə əlaqələr barədə məlumat vermişdir.

**Aprelin 8-dən 13-dək tarixlərində** Ukrayna Respublikası Ali Məhkəməsinin sədr müavini Valentin Barbaranın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda işgüzar səfərdə

olmuşdur. Səfər çərçivəsində qonaqlar Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevlə görüş keçirmiş, Ali Məhkəmənin yüksək statusuna uyğun inzibati binasını gəzmiş, hakimlərin iş şəraiti ilə tanış olmuş, məhkəmə tarixi muzeyinə baxmışlar.

**Aprelin 11-də** Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasının sədri Hikmət Mirzəyev və Mülki Kollegiyasının sədri Şəlalə Məmmədova Azərbaycanda səfərdə olan Avropa Şurası Venesiya Komissiyasının üzvləri ilə görüşmüşlər. Görüşdə Azərbaycan məhkəmə hüquq sistemi ilə Venesiya Komissiyası arasındakı əməkdaşlıq müzakirə edilmiş, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**Aprelin 12-də** ölkəmizdə səfərdə olan Çin Xalq Respublikası Ali Xalq Prokurorluğunun Baş prokuroru, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının prezidenti Çao Cianminqin rəhbərlik etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür. Görüşdə Ali Məhkəmənin strukturu və fəaliyyəti barədə məlumat verilmiş, Azərbaycanın məhkəmə hüquq sahəsində dünyanın bir çox inkişaf etmiş ölkələri ilə ikitərəfli və beynəlxalq təşkilatlar vasitəsilə uğurlu əməkdaşlığı barədə söhbət aparılmışdır.

**Aprelin 17-də** ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Yüksək Yurisdiksiya Məhkəməsinin sədri Sərdar Özgüldürün başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər. Görüşdə Ali Məhkəmənin sədri Türkiyə Respublikası Yüksək Yurisdiksiya Məhkəməsi sədrinin başçılıq etdiyi nümayəndə heyətini Azərbaycanda salamlamaqdan məmnun olduğunu bildirmiş, eyni dil, ənənə və dəyərlərlə bir-birinə yaxın olan hər iki xalqın vahid ideya birliyi və həmrəyliyi ilə bağlı çoxsaylı nümunələrin mövcud olduğunu qeyd etmişdir. Nümayəndə heyətinin rəhbəri Sərdar Özgüldür Türkiyə Respublikası Yüksək Yurisdiksiya Məhkəməsinin fəaliyyət dairəsi barədə danışmış, iki ölkə arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını bildirmişdir .

**Aprelin 17-də** ölkəmizdə səfərdə olan Türkiyə Ədliyyə Akademiyası İdarə Heyətinin üzvü-Yüksək Seçim Kurulu başqanı Sadi Güvenin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin Mülki Kollegiyasının sədri Şəlalə Məmmədova və Hərbi Kollegiyasının sədri Tapdıq Mahmudovla görüşmüşdür. Görüşdə Azərbaycan və Türkiyənin məhkəmə və ədliyyə sistemləri arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulanmış, Azərbaycan məhkəmə sistemi və Ali Məhkəmənin fəaliyyəti haqqında qonaqlara məlumat verilmiş, gənc hakimlərin Türkiyə Ədliyyə Akademiyasında təcrübə keçmələrini xüsusi qeyd olunmuşdur.

***Aprelin 26-da** Ali Məhkəmədə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar elmi-praktik konfrans keçirilmişdir. Konfransda Ali Məhkəmənin sədri Ramiz Rzayev Ulu öndərin həyat və fəaliyyəti ilə əlaqədar məruzə etmişdir. Konfransın sonunda Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən film nümayiş etdirilmişdir.*

**Aprelin 26-da** ölkəmizdə səfərdə olan Çin Xalq Respublikası Ədliyyə Nazirinin müavini Can Sucunun başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər. Görüşdə Azərbaycanla Çinin məhkəmə hüquq sistemləri arasında əlaqələrinin yeni mərhələyə qədəm qoyduğunu, bu əlaqələrin uğurla inkişaf etdiyi vurğulanmışdır.

**Aprelin 29-dan mayın 05-dək** Tvininq layihəsi çərçivəsində Almaniya Federativ Respublikasının Hamburq şəhərində müəllif hüquqları və əlaqəli hüquqların həyata keçirilməsi sahəsində potensialların artırılması məqsədi ilə təlim seminarları keçirilmişdir. Tədbirdə Ali Məhkəmənin hakimi Akif İsgəndərov iştirak etmişdir.

**Mayın 16-dan 20-dək** İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin bir qrup hakimi Azərbaycana səfər etmişdilər. Səfər zamanı qonaqlar Ali Məhkəmənin sədri və hakimləri ilə görüş keçirmişlər. Görüşdə Azərbaycanla qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**İyunun 7-də** Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) təşkilatının dəstəyi ilə Gürcüstan Respublikasının paytaxtı Tiflis şəhərində "Cənubi Qafqaz Hüquq Jurnalının " redaksiya heyətinin növbəti iclası keçirilmişdir. Həmin tədbirdə jurnalın redaksiya heyətinin üzvü, Ali Məhkəmənin hakimi Vəfaddin İbayev iştirak etmişdir.

**İyunun 5-də** ölkəmizdə səfərdə olan Amerika Birləşmiş Ştatları Harvard Universitetinin tələbələri Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər. Görüşdə Ali Məhkəmənin sədri Azərbaycanın məhkəmə sistemi, hakimlərin seçki proseduru, Ali Məhkəmənin strukturu və fəaliyyəti barədə qonaqlara ətraflı məlumat vermişdir. Ali Məhkəmənin sədri İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə işgüzar əlaqələrdən, İnsan Hüquqları üzrə Avropa Konvensiyasının presedent hüququnun Azərbaycanda tətbiqindən danışmışdır. Ali Məhkəmənin sədri tələbələrin verdiyi sualları ətraflı cavablandırmışdır.

**İyunun 12-də** ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Avropa Şurasına Üzv Dövlətlər tərəfindən Öhdəliklərin yerinə yetirilməsi üzrə Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Cozef Debono Qrex, Pedro Aqramunt Fond de Mora və Monitorinq Komitəsi katibliyi rəhbərinin müavini xanım Aqnieşka Naçilo Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər. Görüşdə Monitorinq Komitəsi həmməruzəçilərinin hazırladıqları hesabatla bağlı geniş fikir mübadiləsi aparılmış, onları maraqlandıran suallar cavablandırılmışdır.

**İyunun 12-də** Azərbaycanda səfərdə olan Türkiyə Respublikası Ali Məhkəməsinin Baş Prokuroru Hasan Erbilin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür. Ali Məhkəmənin sədri Azərbaycan və zəngin hüquq ənənələrinə malik qardaş Türkiyənin məhkəmə-hüquq sistemləri arasında işgüzar əlaqələrin genişlənməsindən məmnunluğunu ifadə etmişdir. Türkiyə nümayəndə heyətinin üzvləri Ali Məhkəmənin inzibati binasını gəzmiş, hakimlərin iş şəraiti ilə tanış olmuş, məhkəmə tarixi muzeyinə baxmışlar.

**İyunun 28-də** ölkəmizdə səfərdə olan Vyetnam Milli Məclisinin sədr müavini Uonq Çu Lunun başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür. Görüşdə Ali Məhkəmənin sədri Vyetnam Milli Məclisinin sədr müavini Uonq Çu Lunun başçılıq etdiyi nümayəndə heyətini Azərbaycanda salamlamaqdan məmnun olduğunu bildirmiş, Azərbaycanla Vyetnam arasında əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu, bu əlaqələrin uğurla inkişaf etdiyini vurğulamışdır.

**Avqustun 13-də** ölkəmizdə səfərdə olan Çin Xalq Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə yardımı və xarici işlər İdarəsinin rəisi cənab VU Kiujenin rəhbərlik etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür. Görüşdə Ali Məhkəmənin sədri Çin Xalq Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə yardımı və xarici işlər İdarəsinin rəisi cənab VU Kiujeni və onun başçılıq etdiyi nümayəndə heyətinə Azərbaycanın məhkəmə sistemi haqqında ətraflı məlumat vermişdir.

**Sentyabrın 12-də** ölkəmizdə səfərdə olan ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Ofisinin Azərbaycanda keçiriləcək Prezident seçkisi ilə bağlı müşahidəçilik missiyasını həyata keçirən qrupun rəhbəri xanım Tana de Zuluetanın başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür. Görüşdə insan hüquqlarının təmin

olunması və Prezident seçkisi ilə bağlı faydalı müzakirə aparılmış, nümayəndə heyətinin üzvlərini maraqlandıran suallara ətraflı cavablar verilmişdir.

**Sentyabrın 16-dan 21-dək** kimi Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin dəvəti ilə Birləşmiş Ərəb Əmirlikləri Dubay Məhkəmələrinin Baş direktoru Əhməd Səid bin Həzimin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda işgüzar səfərdə olmuşdur. Həmin səfərin nəticəsi olaraq Azərbaycan Respublikasının Ali Məhkəməsi və Birləşmiş Ərəb Əmirliklərinin Dubay Məhkəmələri arasında " Əməkdaşlıq haqqında İşçi Proqramı" imzalanmışdır.

**Noyabrın 4-dən 5-dək** Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri Rəşadət Ağayev və İlqar Xələfov Çexiya Respublikasının Praqa şəhərində keçirilən Mərkəzi və Şərqi Avropa Məhkəmələrinin mübadilə Şəbəkəsinin Dəyirmi Masasında iştirak etmişlər.

**Noyabrın 13-dən 15-dək** Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Xəqani Məmmədov Fransanın Strasburq şəhərində keçirilən Avropa Hakimlərinin Məşvərətçi Şurasının (CCJE) 14-cü Plenar iclasında iştirak etmişdir.

**Noyabrın 20-dən 23-dək** Ali Məhkəmənin sədri Ramiz Rzayev İstanbul şəhərində "Məhkəmə prosesində şəffaflıq" mövzusuna həsr olunmuş yüksək məhkəmələrin ikinci beynəlxalq zirvə görüşündə iştirak etmişdir. İstanbul Zirvə görüşündə Ali Məhkəməsinin sədri Ramiz Rzayev "Azərbaycan məhkəmə sistemində şəffaflığın təmin olunması məsələləri" ilə bağlı təqdimat çıxışı etmişdir. Ali Məhkəmənin sədri məhkəmələrdə işlərin bölgüsü, məhkəmə prosesinə aid məlumatların, normativ hüquqi aktların, habelə digər hüquqi sənədlərin əldə edilməsi, məhkəmələrin qərarlarının dərc olunması ilə əlaqədar təcrübəyə əsaslanan fikir və mülahizələrini bildirmişdir. Zirvə görüşündə "Məhkəmə prosesinin şəffaflığına dair" İstanbul Bəyannaməsi qəbul edilmişdir.

**Dekabrın 9-dan 10-dək** Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində keçirilmiş "Dəyişən dünyada məhkəmənin üstünlüyü" adlı beynəlxalq konfransda Ali Məhkəmənin Cinayət kollegiyasının sədri Şahin Yusifov iştirak etmişdir.

**Birləşmiş Ərəb Əmirlikləri Dubay Məhkəmələrinin Baş direktoru Əhməd Səid bin Həzimin rəhbərlik etdiyi nümayəndə heyəti 2013-cü il sentyabrın 16 –da Ali Məhkəməsinin sədri Ramiz Rzayevin dəvəti ilə Azərbaycana işgüzar səfərə gəlmişdir.**



Birləşmiş Ərəb Əmirlikləri Dubay Məhkəmələrinin Baş direktoru Əhməd Səid bin Həzimin rəhbərlik etdiyi nümayəndə heyəti 2013-cü il sentyabrın 16 –da axşam Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin dəvəti ilə Azərbaycana işgüzar səfərə gəlmişdir.

Sentyabrın 17-də səhər Birləşmiş Ərəb Əmirlikləri Dubay Məhkəmələri Baş direktorunun rəhbərlik etdiyi nümayəndə heyətinin üzvləri əvvəlcə Fəxri Xiyabana gələrək ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdilər, onun xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoydular. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül düzdülər.

Dubaylı qonaqlar Şəhidlər Xiyabanında oldular. Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda canlarından keçmiş qəhrəman övladların xatirəsi ehtiramla yad edildi,

onların məzarları üstünə gül-çiçək düzüldü. Qonaqlar "Əbədi məşəl" abidəsinin önünə əklil qoydular.

Birləşmiş Ərəb Əmirlikləri Dubay Məhkəmələri Baş direktorunun rəhbərlik etdiyi nümayəndə heyətinin üzvləri Ali Məhkəmənin yüksək statusuna uyğun inzibati binasını gəzmiş, hakimlərin iş şəraiti ilə tanış olmuş, məhkəmə tarixi muzeyinə baxmışlar. Dubay Məhkəmələrinin Baş direktoru muzeyin fəxri qonaqlar kitabına öz ürək sözlərini yazmışdır.

Həmin gün Azərbaycan Respublikası Ali Məhkəməsində Birləşmiş Ərəb Əmirlikləri Dubay Məhkəmələri Baş direktorunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Görüşdə Ali Məhkəmənin sədri Ramiz Rzayev Birləşmiş Ərəb Əmirlikləri Dubay Məhkəmələrinin Baş direktoru Əhməd Səid bin Həzimin rəhbərlik etdiyi nümayəndə heyətini Azərbaycanda salamlamaqdan məmnun olduğunu bildirmiş, ənənə və dəyərlərlə bir-birinə yaxın olan Azərbaycan və ərəb xalqları arasında həmrəyliklə bağlı çoxsaylı nümunələrin mövcud olduğunu qeyd etmişdir.

Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında yüksək səviyyəli qarşılıqlı səfərlərin, iki ölkə arasında başlanmış iqtisadi müqavilələrin, humanitar sazişlərin əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsi üçün böyük imkanlar açdığını diqqətə çatdırmışdır. Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında müxtəlif əməkdaşlıq sahələrini əhatə edən onlarla sənədin imzalandığını vurğulamışdır. Ali Məhkəmənin sədri Azərbaycanla dost Dubay Məhkəmələrinin məhkəmə hüquq sistemləri arasında əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu, bu əlaqələrin uğurla inkişaf edərək nəinki ikitərəfli, eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində genişlənəcəyini vurğulamışdır.

Ali Məhkəmənin sədri respublikamızda məhkəmə hüquq sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini diqqətə çatdıraraq bu işin Ali Məhkəmənin strukturunda və fəaliyyətində öz əksini tapması barədə qonaqlara məlumat vermişdir. Ali Məhkəmənin sədri Birləşmiş Ərəb Əmirlikləri Dubay Məhkəmələri Baş direktorunun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin məhkəmə orqanları arasında əməkdaşlığın daha da inkişaf etməsinə xidmət edəcəyinə əminliyini ifadə etmişdir.

Birləşmiş Ərəb Əmirlikləri Dubay Məhkəmələrinin Baş direktoru Əhməd Səid bin Həzim Dubayda Məhkəmələrin fəaliyyət dairəsi barədə danışmış, iki ölkə arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını bildirmişdir. Qeyd etmişdir ki, bu əməkdaşlıq bundan sonra da davam etdiriləcək.

Azərbaycan Respublikası Ali Məhkəməsi və Birləşmiş Ərəb Əmirliklərinin Dubay Məhkəmələri arasında Əməkdaşlıq haqqında İşçi Proqramı imzalanmışdır.

# Ali Məhkəmənin İnternet səhifəsi

Ali Məhkəmənin İnternet səhifəsi üç dildə – azərbaycan, rus və ingilis dillərində tərtib edilmişdir.

Ali Məhkəmənin fəaliyyətində şəffaflığın və səmərəliliyin artırılması üçün tərtib edilən internet səhifəsi **www.supremecourt.gov.az** ünvanında yerləşir.







Ali Məhkəmənin internet səhifəsi 10 bölmədən ibarətdir. Burada Respublikamızın məhkəmə sistemi, Ali Məhkəmənin strukturu, Plenumun fəaliyyəti, Qərarları (müvafiq məhkəmə kollegiyaları tərəfindən qəbul edilmiş qərarlar), hakimlərin intizam məsuliyyətinə cəlb olunması barədə məlumat, işlərin təyinatı və baxılmış işlərin nəticələri, məhkəmə aidiyyəti, vətəndaşların, ərizə və müraciətlərin qəbulu, arayışlar və mətbuat xidməti haqqında məlumat almaq olar.

Bundan başqa, internet səhifəsində Ali Məhkəmənin rəhbərliyinin və hakimlərinin xarici dövlətlərə səfərləri, ölkədaxili tədbirlərdə iştirakı, habelə, Ali Məhkəmənin təşkil etdiyi tədbirlər haqqında məlumatlarla ətraflı tanış olmaq mümkündür.

Ali Məhkəmənin İnternet səhifəsində mövcud "E-Xidmətlər" bölməsində dəyişikliklər edilmişdir. Bölmədə məhkəməyə daxil olmuş işlər barədə operativ məlumatlar, təyin olunmuş işlər barədə gündəlik və həftəlik məlumatlar dərc olunur, məhkəmə qərarlarının axtarışı üçün xüsusi interfeys yaradılmış, "online müraciət" və qəbul bəndləri əlavə edilmiş, həmçinin hər bənd üzrə istifadəçi üçün təlimat dərc edilmişdir.

2013-ci il ərzində Ali Məhkəmənin internet səhifəsinə daxil olan adamların sayı 46026, daxil olmaların sayi 75861, müraciətlərin sayı isə 328227 dəfə olmuşdur ki, bu da ötən ilin uyğun dövrünə nisbətən orta hesabla 1.23, 1.27 və 1.15 dəfə artıqdır(Qrafik 1).

2013-ci il ərzində Ali Məhkəmənin internet səhifəsinə dünyanın 100-dən çox ölkəsindən 75873 nəfər daxil olunmuşdur ki, bunların 68814-ü Azərbaycandan, 2258-i Rusiyadan, 1569-u ABŞ-dan, 690-ı Ukraynadan, 272-si Türkiyədən, 223-ü Almaniyadan, 207-si İngiltərədən, 181-i Ermənistandan, 163-ü Qazaxıstandan, 152-si Belorusdan, 144-ü Fransadan, 91-i Gürcüstandan və 115-i isə digər ölkələrdən olmuşdur.

Qrafiklərdə müraciətlərin təkrarlanma və davamlılığa görə paylanması nümayiş edilir. İkinci qrafikdən göründüyü kimi bütün müraciətlərin 39,64%-i bir, 11,76%-i iki, 7,88%-i üç, 5,12%-i dörd, 4,71%-i beş və 30,89%-i altı dəfə və daha çox təkrar olmuşdur.

Üçüncü qrafikdə müraciətlərin davamlılığı nümayiş etdirilir. Buradan göründüyü kimi bütün müraciətlərin 53.31%-i 10 saniyəyə qədər, 6,93%-i 11-30 saniyə, 6,00%-i 31-60 saniyə, 11,03%-i 1-3 dəqiqə, 12,18%-i 3-10 dəqiqə, 8,57%-i 10-30 dəqiqə 1,98%-i isə 30 dəqiqədən artıq davam etmişdir.



# Ali Məhkəmənin bülleteni

Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi nəşri olan bülleten 2003-cü ilin yanvar ayından çap olunur.

İldə dörd dəfə nəşr olunan bülletendə məhkəmə fəaliyyəti ilə bağlı Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanun və qərarlar, Ali Məhkəmə Plenumunun qərarları, Ali Məhkəmənin sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qəbul etdiyi qərarlar, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair Ali Məhkəmədə aparılan ümumiləşdirilmənin nəticələri, icmal məktubları, Ali Məhkəmənin beynəlxalq əlaqələri, Ali Məhkəmə sədrinin görüşləri və məhkəmə fəaliyyəti ilə bağlı digər maraqlı materiallar dərc edilir.

2013-cü ildə Ali Məhkəmənin dörd bülleteni çap olunmuşdur.

Həmin bülletenlərdə əsasən cinayət işləri və mülki işlər üzrə məhkəmə təcrübəsi ilə bağlı qanunvericiliyin bəzi maddələrinin şərhinə həsr olunmuş analitik yazılar, apellyasiya instansiyası məhkəmələrinin cinayət və mülki işlər üzrə bəzi qərarlarının ləğv edilməsinə və dəyişdirilməsinə səbəb olan halları özündə əks etdirən hüquqi məqalələr, beynəlxalq əlaqələrə və görüşlərə həsr olunmuş məlumatlar, Ali Məhkəmədə 2013-cü ildə keçirilmiş tədbirlər, Ali Məhkəmənin Plenumunda müzakirə olunan məsələlər və qəbul edilən qərarlar, aktuallıq kəsb edən digər tədbirlər öz əksini tapmışdır.

Ali Məhkəmənin bülletenini abunə yazılmaqla əldə etmək olar. Rəngli formada buraxılışı ilə əlaqədar bülletenin illik abunə haqqı **42 manatdır.**

Abunə haqqı aşağıda göstərilən hesaba ödənilməlidir.

VÖEN 3100693732, H/h AZ47UBAZ01009655541040AZN001 Unibank KB-də, VÖEN 1300017201, kod 505754, m/h AZ46NABZ01350100000000015944, SWİFT BİK: UBAZAZ22.

## Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi və onun maddi-texniki təchizatı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.

Ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun həyata keçirilməsi üçün ölkə Prezidenti tərəfindən məhkəmələrə hər cür şərait yaradılmış və bu proses indi də davam etdirilir.

Məhz bunun nəticəsidir ki, dövlət büdcəsinin xərclər hissəsində məhkəmə hakimiyyətinin, o cümlədən, Azərbaycan Respublikası Ali Məhkəməsinin saxlanılması xərclərinin həcmi ilbəil artırılır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ali Məhkəməsi hakimlərinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 19 oktyabr 2010-cu il tarixli sərəncamı bu sahəyə diqqətin əyani nəticəsidir.

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi üçün 2013-cü ildə ayrılan illik büdcə vəsaiti (dürüstləşmə ilə) **6177570** manat, o cümlədən, əmək haqqı fondu **4105891** manat müəyyən edildiyi halda, 2014-cü ildə Ali Məhkəməyə ayrılan illik büdcə vəsaiti **6293615** manat müəyyən edilmişdir ki, bu da 2013-cü ildə ayrılan büdcə vəsaitindən **116045** manat çoxdur.

## Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası

Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə birbaşa əlaqəsinin təmin edilməsi, lazım gəldikdə Ali Məhkəmədə baxılmış mülki və cinayət işləri haqqında onlara operativ qaydada məlumat vermək Ali Məhkəmənin hakimləri Mirzəliyev Əsəd Abdulla oğluna və Kərimov Fərhad Abdulkərim oğluna həvalə olunmuşdur.

Mülki işlərlə əlaqədar məlumat almaq üçün hakim Əsəd Mirzəliyevlə **493-09-91** nömrəli, cinayət işləri ilə əlaqədar isə hakim Fərhad Kərimovla **493-22-03** nömrəli telefonlarla birbaşa əlaqə saxlamaq olar.

Bundan əlavə, həmin hakimlərlə Ali Məhkəmənin contact@ supremecourt. gov.az e-mail ünvanı vasitəsilə də əlaqə saxlamaq olar.

Ali Məhkəmədə keçirilən tədbirlər haqqında müvafiq məlumatları **493-18-37** nömrəli telefonla Ali Məhkəmənin mətbuat katibi Məmmədli Allahverdi Məhərrəm oğlundan almaq olar.